Sosial İnkişafa Dəstək Ümid Support to Social Development

# “ÜMİD” SOSİAL İNKİŞAFA DƏSTƏK İCTİMAİ BİRLİYİ

İNFORMASİYA BÜLLETENİ №1, 2014

## Kəndlərin Davamlı İnkişafı Təşəbbüsü

Project funded by the European Union

Avropa İttifaqının maliyyələşdirdiyi “Kəndlərin davamlı inkişafı təşəbbüsü” layihəsinin icrası uğurla davam edir. Layihə çərçivəsində İcma İnkişaf Şurası üzvlərinin bacarıqlarının artırılması məqsədilə 20 hədəf icmada 7 mövzuda (“İcmanın səfərbər olunması”, “Komanda işi və Liderlik”, “İcma fondu və icma töhvəsinin idarə olunması”, “Ehtiyacların qiymətləndirilməsi”, “Layihə təklifinin yazılışı”, “Dayanıqlıq və istismar planının hazırlanması” və “Effektiv təqdimat”) 105 təlim keçirilmişdir. Təlimlərdə İİŞ üzvləri ilə bərabər icma fəalları da iştirak etmişlər. Burada müzakirə olunmuş mövzular İİŞ və icma üzvlərinin bilik və bacarıqlarının artmasına, onların ictimai təşkilat və donorlarla münasibətlərə yeni prizmadan baxmalarına və bunun nəticəsində ümumən əməkdaşlığa maraqlarının artmasına səbəb olmuşdur.

Həmçinin 20 icmada 6 mövzuda (“İİŞ üzvlərinin vəzifə və öhdəlikləri, koordinatorun seçimi, İcma pasportu, xəritəsi, əsasnaməsi və təşkilati struktur cədvəlinin hazırlanması” və “Ehtiyacların müəyyənləşdirilməsi və sorğunun keçirilməsi”, “Sorğuların təhlili və 3 prioritet ehtiyacın müəyyənləşdirilməsi”, “Layihənin texniki təsvirinin hazırlanması” və “LTT və yekun smetanın müzakirəsi”) 90 Dəyirmi masa keçirilmişdir. Dəyirmi masalarda İİŞ üzvləri icma sənədlərinin (icmanın əsasnaməsi, xəritəsi, pasportu və struktur cədvəli) hazırlaması, ehtiyacların müəyyənləşdirilməsi və sorğuların keçirilməsi metodlarını öyrənmiş, layihə təklifləri və büdcənin hazırlanması barədə bacarıqlar əldə etmişlər.

### Usta Yanında Şagird Hazırlığı

Layihə çərçivəsində 20 hədəf icmada UYŞH kursları ilə bağlı informasiya yayımı aparılmış və elanlar paylanmışdır. Elanlara əsasən peşə kurslarına müraciət edən gənclər və onların valideynləri ilə 26 fərdi görüş keçirilmişdir. Keçirilən görüşlərdə KDİT layihəsi və UYŞH komponenti haqqında məlumat verilmiş, gənclərin seçdiyi peşəyə həvəsi, öyrənmək bacarıqları, valideynlərin dəstəyi müzakirə olunmuşdur. Müraciət edən 45 nəfər gənc 13 peşə sahəsi üzrə UYŞH kurslarına cəlb olunmuş, onlardan 30 nəfər gənc kursları müvəffəqiyyətlə bitirərək sertifikat almışlar. 4 nəfər gəncin biznes planı isə Möhkəm Başlanğıclı İqtisadi Layihə (MBİL) üzrə dəstəklənmişdir.




Kompüter təmiri sahəsinin monitorinqi

### Layihə təkliflərinin alınması və icrası:



Xaçmaz rayonunun Xanlıqoba icmasında icmaya gedən əsas yolun açılış mərasimi

20 hədəf icmadan ümumilikdə 60 layihə təklifləri təqdim edilmişdir. Layihənin tələbinə uyğun olaraq infrastrukturu daha zəif olan 5 icmadan təqdim edilmiş 4 layihə təklifi (“İcmadaxili Yolların Təmiri”- Quba rayonu, Zərqava icması, “İçməli Su Təminatının Yaxşılaşdırılması”- Qusar rayonu, Yasab icması, “İçməli Su Təminatının Yaxşılaşdırılması” - Şabran rayonu, Günəşli icması, “İcmaya Gedən Əsas Yolun Təmiri”- Xaçmaz rayonu, Xanlıqoba icması) maliyyələşdirilməsi üçün seçilmişdir. Qeyd edilən layihələrdən Xaçmaz rayonu Xanlıqoba icmasında “İcmaya gedən yolun təmiri” və Qusar rayonu Yasab icmasında “İçməli su təminatının yaxşılaşdırılması” layihələri müvəffəqiyyətlə başa çatmış, açılış mərasimləri keçirilmişdir. Günəşli və Zərqova icmasında isə layihələrin icrası davam etdirilir.

**Bu sayımızda:**

*Kəndlərin davamlı inkişafı təşəbbüsü* — səh. 1

*Azərbaycanda məskunlaşmış məcburi köçkünlər üçün bacarıqların artırılması təlimi və yaşayış şəraitinin yaxşılaşdırılmasına dəstək* — səh. 2

*Azərbaycanda qaçqın və sığınacaq axtaranlar üçün bacarıqların artırılması təlimi və yaşayış şəraitinin yaxşılaşdırılmasına dəstək* — səh. 3

*Azərbaycanda Sosial İqtisadi İnkişaf Fəaliyyəti* — səh. 4

*Uğur Hekayələri* — səh. 5-6

## Azərbaycanda məskunlaşmış məcburi köçkünlər üçün bacarıqların artırılması təlimi və yaşayış şəraitinin yaxşılaşdırılmasına dəstək

Azərbaycanın bütün regionlarında ağır şəraitdə köçkünlük həyatı yaşayan qaçqın və məcburi köçkünlərimizin işsizliyini, yoxsulluğunu aradan qaldırmaq məqsədilə BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığının maliyyə dəstəyi ilə Sumqayıt şəhərində həyata keçirilən "Azərbaycanda məskunlaşmış məcburi köçkünlər üçün bacarıqların artırılması təlimi və yaşayış şəraitinin yaxşılaşdırılmasına dəstək" layihəsi çərçivəsində hər il olduğu kimi bu il də fəaliyyət "Ümid" SİD İB tərəfindən uğurla davam etdirilir.

Layihənin məqsədi məcburi köçkün gənclər üçün gəlir və iş imkanlarının artırılması, məcburi köçkün gənclərə ofis proqramları üzrə ilkin kompüter bilgilərinin verilməsi, internetdən pulsuz istifadə xidmətindən ibarətdir.

Ümumilikdə layihə fəaliyyətə başladığı gündən bu günə kimi 28 icmada 560 nəfərin iştirakı ilə görüşlər təşkil edilmişdir.

Layihə üzrə yerli icra orqanları və Dövlət Qaçqın komun Sumqayıt şöbəsinin səlahiyyətli nümayəndələri ilə qaçqın və məcburi köçkünlərin sıx məskunlaşdıqları ərazilərdə görüşlər keçirilmiş və ərizə formaları paylanmışdır. Görüşlərdə müəllimlər, sahibkarlar, gənclər iştirak etmiş, layihə barədə məlumatlandırılmışlar.



Dərzi sahəsində təlim

Layihənin fəaliyyəti ərzində icmalardan yığılmış ərizələrin çoxluğu bir daha məcburi köçkün gənclərimizin müxtəlif sənət və kompüter sahələrinə olan maraqlarını sübut edir. Xüsusən dövrün tələbinə uyğun olaraq yeni sahələrin inkişafına xüsusi diqqət yetirilir. Belə ki, hər il olduğu kimi gənclər müasir dövrlə ən çox səsləşən kompüterlərin təmiri və şəbəkənin qurulmasına xüsusi maraq göstərirlər. Fəaliyyət dövrü ərzində Usta Yayında Şagird Hazırlığı kurslarında iştirak etmək üçün 150 nəfər gənc 14 sahə üzrə müraciət etmişdir. "Ümid" SİD İB-in peşə təlimi mütəxəssisləri tərəfindən ərizələr araşdırılmış və ərizəçilərlə görüşlər təşkil edilmişdir. Keçirilən görüşlərdə gənclərin seçdikləri peşəyə olan marağı, bu sənəti öyrənmək bacarıqları və seçim kriteriyaları nəzərə alınmışdır. İcmalardan yığılmış sorğu blanklarının çoxluğuna əsasən qadın bərbəri, kişi bərbəri, qadın dərzisi, qənnadçı, dəmirçi-rəngsaz, kompüterlərin təmiri və şəbəkənin qurulması, mühərrik təmiri sahələri üzrə 25 şagird təlimlərə cəlb edilmişdir.

"Ümid" bu il də ötən illərdə olduğu kimi əqli və fiziki cəhətdən qüsurlu, aztəminatlı və valideyn himayəsindən məhrum olan uşaqlara humanitar xidmət göstərmək ənənəsini davam etdirmişdir. Belə ki, 11 gənc ustamız tərəfindən "SOS" uşaq kəndləri təşkilatının 40 nəfər üzvünə kişi və qadın bərbəri üzrə xidmət göstərilmişdir.

Layihə əməkdaşları hər ayın əvvəlində kursları monitorinq etmiş və monitorinqlər əsasında təlimlərdə şagirdlərin davamiyyətinin 98% olduğu müəyyənləşdirilmişdir. Onlar həmçinin, Biznes Planı dəstəklənən gənc sahibkarların iş yerlərinə baş çəkmiş və onların qısa bir zamanda kifayət qədər müştəri cəlb etmələrinin və burada yaşayan əhalinin maddi imkanlarına uyğun olaraq, göstərdikləri xidmətlərin qiymətlərinin münasib olmasının şahidi olmuşlar.

Onu da qeyd edək ki, layihə müddətində UYŞH kursunu bitirmiş 25 məcburi köçkün gəncdən 17-si artıq işlə təmin olunmuşdur.

Ümumiyyətlə həyata keçirilmiş MBİL layihələrin əhəmiyyəti ondadır ki, bu layihələr hədəf ərazilərdə həmin xidmətlərdən istifadəni yaxşılaşdırmaqla yanaşı həm də, bu xidmətlərin qiymətinin müəyyən qədər aşağı düşməsinə səbəb olur.

UYŞH sahələri ilə birgə məcburi köçkün gənclərin kompüter kurslarına olan marağı günbəgün artmaqdadır. Layihə fəaliyyətə başladığı gündən bu günə kimi 78 nəfər kompüter təliminə ərizə ilə müraciət etmiş və onlardan 41 nəfər MS Word, Excel, Power Point, Outlook, Internet Explorer, proqramları üzrə kompüter təlimlərinə cəlb edilmişdir. Ümumiyyətlə Sumqayıt şəhərində fəaliyyəti olan məcburi köçkün məktəblərinin müəllimlərinin 80%-i ilkin kompüter bilgiləri almışlar.



Kompüter sahəsində təlim

## Azərbaycanda qaçqın və sığınacaq axtaranlar üçün bacarıqların artırılması təlimi və yaşayış şəraitinin yaxşılaşdırılmasına dəstək

BMT QAK-dan əldə olunan son məlumata əsasən Azərbaycanda hal-hazırda 1636 nəfər qaçqın və sığınacaq axtaran vardır. Onların əksəriyyəti Bakı şəhərində müvəqqəti olaraq məskunlaşıb. BMT QAK-ın partnyorları tərəfindən aparılan sosial monitorinqlər göstərir ki, qaçqın ailələrin 80 %-dən çoxu yoxsulluq şəraitində yaşayır. Əsas iş yerləri tikinti sahəsi, müxtəlif xidmətlərin göstərilməsi, evdə hazırlanan məhsulların satışından ibarətdir. Təbii ki, bununla davamlı gəlir əldə etmək mümkün olmur və bu gənc yaşda olan qaçqınların təhsil almağına, hər-hansı bir ixtisasa yiyələnməyinə çox ciddi maneələr yaradır.

"Ümid" təşkilatının BMT QAK-ın maliyyə dəstəyi ilə həyata keçirdiyi "Azərbaycanda məskunlaşmış qaçqınlar üçün bacarıqların artırılması təlimi və həyat şəraitin yaxşılaşdırılmasına dəstək" layihəsinin başlıca məqsədi mövcud problemləri aradan qaldırmaqla qaçqınların iqtisadi vəziyyətini və özünə inam hissini gücləndirməkdir.

Layihənin əsas hədəf qrupu 15-38 yaş arasına daxil olan qaçqınlardır, çünki məhz bu yaşda olan insanların iş tapmaq imkanları çox məhduddur. Layihədən birbaşa 315 nəfər qaçqın faydalanacaqdır.

### Usta Yanında Şagird Hazırlığı

UYŞH kurslarında iştirak etmək üçün 10 peşə sahəsi üzrə 51 müraciət ərizəsi qəbul edilmişdir. Usta Yanında Şagird Hazırlığı metodu ilə təşkil edilən kursalara cəlb olunanlar hər zaman olduğu kimi daha çox qadın bərbəri sahəsinə maraq göstərirdilər.

Layihə üzrə müəyyən edilmiş seçim meyarlarına əsasən, 25 qaçqın 6 peşə sahəsi üzrə UYŞH kurslarına cəlb edilmişdir. Kursu müvəffəqiyyətlə bitirənlər müvafiq sertifikatlarla təltif edilmişlər. Hazırda kursu bitirmiş 5 nəfər bitirdikləri sahəyə uyğun olaraq ev şəraitində öz icma nümayəndələrinə xidmət göstərir və bununla da öz bacarıqlarını artırırlar.



Kosmetologiya sahəsində təlim

### Kompüter kursları və internet xidmətləri

2014-cü il ərzində, Microsoft Office 2013, Adobe Photoshop, CorelDraw proqramları üzrə 40 nəfər cəlb edilmişdir. Hazırda kompüter kurslarını 3 nəfər şagird davam etdirir. Onu da qeyd etmək lazımdır ki, 36 nəfər qaçqın kursları uğurla bitirdiyinə görə müvafiq sertifikatlarla təltif edilmişdi.

İnternet xidmətindən istifadə edənlərin sayı 182 nəfər olmuşdur. Bu xidmətlərə, internetə çıxış, saytlardan qeydiyyatdan keçmək və onlardan istifadə etmək, elektron ünvanlarını açmaq, audio\video faylların köçürülməsi, DVD disklərin yazılması və s. xidmətlər daxil idi.



"Ümid" SİD-in Bakı sahə ofisində qaçqın gənclər üçün kompüter təlimi

### Biznes sahələrinin monitorinqi və qiymətləndirilməsi

2014-cü ildə 84 monitorinq görüşü keçirilmişdi. Əldə edilən nəticələrə əsasən, biznes sahələrinin bəziləri mövsümü xarakteri daşıdığından, onların gəliri qeyri stabil və dəyişkən olmuşdu. Ən uğurlu biznes sahələrinə tikinti və heyvandarlıq sahələrini aid etmək olar. Belə ki, bu sahələrdə, layihə çərçivəsində Biznes Planı dəstəklənənlər müəyyən bir müddət sonra əldə etdikləri gəlir hesabına lazımi avadanlıqları ala və digər məişət xərclərini ödəyə bilirlər.

Əldə edilən müsbət nəticələri nəzərə alaraq, daha çox benefisiarın Biznes Planını dəstəkləmək qərara alınmışdır. Bu məqsədlə də, aprel ayında yeni Biznes Planının qəbulu ilə bağlı elan verilmiş və nəticədə 42 müraciət qəbul olunmuş, onlardan 24-nün Biznes Planı dəstəklənmişdir. Benefisiarların çoxu bizneslərini inkişaf etdirib genişləndirmək arzusundadır və bunu etmək potensialına malikdirlər, sadəcə onların xaricdən kiçik bir dəstəyə ehtiyacları var.



Biznes sahəsinin monitorinqi

SEDA layihəsində növbəti yeni icmalarla əməkdaşlığın qurulması üçün Maraq məktubu təqdim etmiş 5 rayon üzrə 12 icmada araşdırmalar aparılmış və icmalarda layihə barədə məlumatların verilməsi və İİŞ üzvlərinin seçilməsi məqsədi ilə 24 Ümumi İcma görüşü keçirilmişdir. Gəncə-Qazax regionu üzrə 12 icmada 118 nəfərdən ibarət olan 12 İcma İnkişaf Şurası yaradılmış və İİŞ üzvlərinin tərkibi formalaşdırılmışdır.

**Bacarıqların artırılması-Dəyirmi masalar:** İİŞ üzvlərinin bacarıqlarının və layihə fəaliyyətlərindəki fəallıqlarının artırılması məqsədi ilə, Aran, Şimal və Gəncə-Qazax regionları üzrə 55 icmada "Ehtiyacların müəyyənləşdirilməsi və sorğuların keçirilməsi", "Sorğuların təhlili və İcma ehtiyaclarının qiymətləndirilməsi", "Layihə təklifinin hazırlanması", "Layihənin texniki təsvirinin hazırlanması" və "LTT və smetanın müzakirəsi" mövzularında 230 Dəyirmi Masa keçirilmişdir.

**Təlimlər:** İİŞ üzvlərinin bacarıqlarının artırılması məqsədi ilə Gəncə-Qazax, Şimal və Aran regionları üzrə 36 icmada İİŞ üzvlərinə "Danışıqların Aparılması", "Effektiv Təqdimat", "Dayanıqlıq və İstismar Planının Hazırlanması", "İcmanın Uzun müddətli Fəaliyyət Planının Hazırlanması" mövzularında 104 Təlim keçirilmişdir. Təlimlər zamanı İİŞ üzvlərinə mövzular üzrə müvafiq bilik və bacarıqlar ötürülmüşdür. Xüsusilə, Axısxa icmasında İİŞ üzvləri, Bələdiyyə və İN əməkdaşlarından ibarət auditoriyaya verilmiş "Danışıqların aparılması" təlimi böyük marağa səbəb olmuşdur. Təlimçi tərəfindən danışıqların aparılması prosesinin mahiyyəti, əhəmiyyəti, onun icmanın sosial – iqtisadi inkişafına nail olmaq və həyat şəraitini yaxşılaşdırmaq yolunda qarşıda duran problemini aradan qaldırmaq üçün tətbiq olunan bir vasitə olduğunun geniş izahı verilmiş, danışıqlar prosesinin bilavasitə gedişi (davranış tərzi, aktiv eşitmə tərzi, danışıq və sual vermə tərzi, gülümsəyərək "yox" cavabı vermək, danışıqları dayandırmaq) bölməsi iştirakçılarda təsirli canlanma yaradaraq, onlarda müzakirələrdə aktiv iştirak etmə həvəsini artırmışdır.

**Mübadilə görüşü:** İİŞ-nın potensiallarının artırılması məqsədi ilə Samux rayonu, Lək bələdiyyəsinin ərazisində yerləşən Əlibayramlı icmasında Əhmədbəyli İİŞ üzvləri ilə mübadilə görüşü keçilmişdir.

Görüşdə Əhmədbəyli İİŞ üzvləri Əlibayramlı icmasında layihələrin həyata keçirilməsi prosesində icmanın rolu, icmanın səfərbər olunması, icma töhfəsinin qoyulması və xərclənməsi istiqamətində fəaliyyətlərlə tanış olmuş və təcrübələri öyrənilmişdir.

Əlibayramlı icmasının yerləşdiyi Lək bələdiyyəsinin sədri layihələrin həyata keçirilməsində bələdiyyənin dəstəyini və rolunu qeyd etmişdir. O bütün layihələrdə bələdiyyənin yaxından iştirak etdiyini, icma üzvlərinin bu işlərə cəlb olunmasına dəstək verdiyini, hökumət və digər aidiyyəti qurumlarla əlaqələrin qurulması və onların dəstəyindən istifadənin təşkil etdildiyini vurğuladı. Əhmədbəyli İİŞ-nın üzvü indiyə qədər onların icmasının heç bir QHT ilə əməkdaşlıq etmədiklərini, icmada heç bir layihənin həyata keçirilmədiyini və bu baxımdan da onlar Əlibayramlı icması kimi icmaların təcrübəsindən faydalanmağın əhəmiyyətini qeyd etmişlər. Artıq SEDA layihəsi çərçivəsində əməkdaşlıq nəticəsində onların icmasında da İİŞ yaradıldığı bildirilmişdir Bu görüşdən onlar çox şey öyrəndiklərini və əldə olunan bacarıqları gələcəkdə layihənin həyata keçirilməsində qarşıya çıxa biləcək çətinliklərin həllində tətbiq edəcəklərini qeyd etmişlər.

Əlibayramlı İİŞ-nın üzvləri və qonaqlar İcmada həyata keçirilmiş "Kəndarası yolların çınqıllanması", "Məktəbdə əlavə sinif otaqlarının tikilməsi", "İcma xidmət mərkəzinin tikilməsi", "Su təminatının yaxşılaşdırılması" layihələrinə baxış keçirdilər. Xüsusilə kəndin yeni salınmış məhəlləsində su təminatının yaxşılaşdırılması üçün icmanın təşəbbüsü və vəsaiti hesabına bələdiyyənin dəstəyi ilə su xətinin çəkilməsi qonaqların daha çox xoşuna gəldi və icmanın uğuru kimi qiymətləndirildi. Hər iki İİŞ üzvləri gələcəkdə yaxşı təcrübələrinin bölüşdürülməsi üçün əlaqələrin saxlanılacağı və belə görüşlərin davamlı keçiriləcəyini qeyd etdirlər.

### Yaxşı Təcrübələrin ötürülməsi

Aran, Şimal və Gəncə-Qazax regionları üzrə "Yaxşı təcrübələrin ötürülməsi" mövzusunda 5 region daxili və 3 regionlar arası mübadilə görüşü keçirilmişdir. Tədbirlər zamanı dəvət olunmuş digər icmalardan gəlmiş qonaqlarla birlikdə icra edilmiş layihələrə baxış keçirilmiş, ev sahibləri ilə icmanın layihə həyata keçirmə təcrübələri, layihələrin keyfiyyəti və dayanıqlığı istiqamətində fikir mübadilələri aparılmışdır.

## Uğur Hekayələri



Riyanə Qafarova sertifikat alır

# Avropa İttifaqının maliyyələşdirdiyi layihə

## Kərpic Kəsən Xanımın Dastanı

Düşünürük ki, bu xanım dahi Nizaminin qəhrəmanı "Kərpic kəsən qoca"dan fərqli olmayaraq, onun kimi halal əməyi ilə yaşayan namuslu bir kəsdir.

Riyanə Qafarova Qusar rayonunun Piral kəndində doqquz uşaqlı bir ailədə dünyaya gəlib. Çox çətin şəraitdə böyüyən Riyanənin ən böyük istəyi ali təhsil alıb, öz biznesini qurmaq idi. Lakin maddi imkansızlığa görə o, həyata tutunmaq və ailəsinə kömək etmək məcburiyyətində qalaraq, təhsilini yarıda buraxmalı olur.

Bir gün yaxın qonşusu ona kənddə usta yanında şagird hazırlığı kursları barədə danışan şəxslərdən xəbər verir. Riyanə buna çox sevinir və həmin elanla Avropa İttifaqının maliyyə dəstəyi ilə təşkil edilən qadın bərbəri kursuna yazılır. İki körpə uşaq anası Riyanə Qafarova böyük ümidlərlə 4 ay müddətində həftədə 3 dəfə avtobusla 20 km məsafəni qət edərək Qusar rayon mərkəzində keçirilən dərs və təlimlərdə iştirak edir.

Riyanə deyir: "Mən hər zaman televiziya kanallarında moda verilişlərinə baxanda xanımlara yeni saç düzümü verib, onları yeni üslubla bəzəməyi xəyal edirdim, bu gün artıq sənət sahibiyəm. İndi isə ən böyük hədəfim qadın salonu açmaqdır".

Kursa başlayanda Riyanə və digər iştirakçılar bilirdi ki, kursu müvəffəqiyyətlə bitirən gənclər kiçik biznes qurmaq üçün dəstək alacaq.  Belə də oldu. Riyanə kursu müvəffəqiyyətlə bitirənlər arasında oldu və onun Biznes Planı layihə çərçivəsində dəstəkləndi.

Hədəfinə doğru irəliləyən Riyanə maddi imkanı olmadığından salonu çiy kərpicdən tikmək qərarına gəlir. Salona lazım olan avadanlıqlar isə layihə hesabına alınır.

Bu gün 28 yaşlı Riyanə artıq öz ayaqları üzərində sərbəst duran, öz halal zəhməti ilə həyatını quran Azərbaycan xanımıdır.

Bu layihədən faydalana bildinizmi sualına Riyanənin cavabı belə oldu: "Əlbəttə! Kursa getməklə bu sənətin incəliklərini öyrəndim. Təşkil olunan təlimlər məni öz biznesimi qurmağa həvəsləndirdi. İstəyim o qədər güclü idi ki, salonu öz əllərimlə tikdim, bu layihə hesabına isə lazımi avadanlıqlar alındı. Nəhayət ki, mən də öz istəyimə çatdım."

Bu uğur tarixçəsi hafizəmizdən hələ uzun müddət silinməyəcək. Xanım üçün belə bir həyat mücadiləsi alqışa layiqdir.

## ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin və Azərbaycan Hökumətinin birgə maliyyələşdirdiyi layihə

## Şollar suyu

Şabran rayonu şahnəzərli icması uzun illərdir ki, içməsi su çatışmazlığından əziyyət çəkirdilər. Kənddə içməli su xətti mövcud olsa da, xəttin sıradan çıxması səbəbindən yerli sakinlərdən yalnız 3-4 ailə bu sudan istifadə edə bilirdi. Digər ailələr isə suyu əl ilə daşımalı olur və ya suvarma suyu üçün nəzərdə tutulmuş arx suyunu duruldaraq istifadə etmək məcburiyyətində qalırdılar. Şahnəzərli icmasında layihənin icrasının yaranmış texniki problemlər səbəbindən iki il uzanmasına baxmayaraq icma sakinləri suyun çəkilişinə ümidlərini itirmir və layihənin reallaşacağı günü səbirsizliklə gözləyirdilər.

Nəhayət səbirsizliklə gözlənilən gün yetişdi.

İsti iyun səhəri əhali yuxudan ağır texnikanın səsinə oyanır və kəndin içində traktorların işləməsi, materialların əraziyə gətirilməsinin şahidi olurlar.

Yerli sakinlərin və bələdiyyə sədrinin də iştirakı ilə cəmi 5 gün ərzində layihə üzrə boruların çəkilməsi işini tamamlamaq mümkün olur. Və sınaq məqsədi ilə kəndə su verilir.

Suyun çox az müddət buraxılmasına baxmayaraq icma sakinlərinin sevinci yerə-göyə sığmırdı. Şahnəzərli kənd ağsaqqallarından olan Əsədulla müəllim kənddə görülən işdən razılığını və bu işdə zəhməti keçən hərkəsə kənd sakinlərinin adından təşəkkürünü bildirdi.

## *Şüarımız:*
## *İnsanlara mühit verin onlar xariqələr yaradacaq*


## Ünvanlarımız

***Baş ofis:***
Bakı şəhəri, Ə. Cavad küç.-7A
Tel./ Faks (+99412) 434 53 15; (+99412) 434 96 98
E-poçt ünvanı: office@umid-hsdm.com

***Bakı sahə ofisi:***
Nərimanov r-nu., Orucəliyev küç.- Q-46
Tel: (+99412) 437 82 39

***Sumqayıt sahə ofisi:***
6-cı mkr-n, C. Məmmədquluzadə küç.
Tel: (+99418) 642 55 18

***Gəncə regional ofis:***
Süleyman Rəhimov küç.-30
Tel: (+99422) 57 48 62
Katel: (+99912) 417 96 98

***Quba regional ofis:***
Məhəllə 32/33
Tel: (+99423) 335 59 58

***İmişli regional ofis:***
H.Əliyev pr., ev 88
Tel: (+99421) 246 15 40